# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması tarixi ədalətin bərpasıdır



***Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli fərmanda bildirilib ki, ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində respublikamızın iqtisadi potensialı artıb, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb. Ardıcıl olaraq reallaşdırılan islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin hərbi-müdafiə qüdrətini daha da gücləndirib və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb.***

Sənəddə, eyni zamanda, vurğulanıb ki, hazırda düşməndən təmizlənən ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azad olunan ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların inkişafı üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi həmin torpaqların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirib.

Fərmanda ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsünü fərqləndirən bir sıra məqamlar da öz ifadəsini tapıb. Belə ki, Bakı Abşeronun tərkibindən ayrılaraq, ayrıca bir iqtisadi rayon kimi qəbul edilib. Bundan başqa, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları da yaradılıb.

Yeri gəlmişkən, ölkəmiz dövlət müstəqilliyini bərpa etdiyi 1991-ci ildən "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli fərmanı imzalananadək regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları 10 iqtisadi rayon üzrə həyata keçirilirdi. Otuz il ərzində Ermənistanın işğalı altında qalan ərazilərdə yerləşən Ağdam və Füzuli rayonlarının bir hissəsi, keçmiş Dağlıq Qarabağ ərazisinə daxil olan ərazilər və Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonları bu proqramların təsir dairəsindən kənarda idi.

Buna baxmayaraq, adı çəkilən fərman imzalanana kimi, digər şəhər və rayonların davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilən dövlət proqramlarının (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) uğurlu icrası nəticəsində ölkəmizin sosial-iqtisadi potensialı və əhalinin, o cümlədən hər zaman dövlət tərəfindən böyük diqqət və qayğı ilə əhatələnən qaçqın və məcburi köçkün ailələrinin rifah halı köklü şəkildə yüksəlib, şəhər, qəsəbə və kəndlərin siması müasirləşib, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyəti getdikcə artıb.

Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi isə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təsis olunmasını şərtləndirib. Xatırladaq ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilib. Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları əsasında qurulub.

Beləliklə, Bakı, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması ilə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar üzə çıxarıb. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli fərmanda göstərildiyi kimi, Qarabağ bölgəsinin sürətli inkişafına zəmin yaranıb.

"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılmasının zəruriliyi də öz ifadəsini tapıb. Burada qeyd olunur ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması mühüm önəm daşıyır.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılmasının Azərbaycanın, eləcə də Qarabağın iqtisadiyyatına müsbət təsiri barədə danışarkən, bir məqamı xüsusilə qeyd etmək istərdik. Əvvəla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil edilən ərazilərin

> ***Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair fərman imzalandı, tarixi ədalət bərpa edildi.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

(Ağdam, Füzuli, Şuşa, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan və digər torpaqların) yeraltı-yerüstü sərvətləri erməni vandalları tərəfindən 30 il ərzində talan edilib, oğurlanaraq Ermənistana daşınıb. Məsələn, işğal dövründə qəsbkar düşmən Laçın kimi təbii sərvətlərlə zəngin bir rayonu tamamilə talayıb, meşələri doğrayaraq işğalçı ölkəyə daşıyıb.

Rayon ərazisində yerləşən iki xüsusi mühafizə olunan təbiət ərazisinə – Qaragöl Dövlət Təbiət Qoruğu və Laçın Dövlət Təbiət Yasaqlığına böyük ziyan vurulub. Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göldən Laçındakı Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl böyük antropogen təsirə məruz qalıb. Rayonun meşə fondunun əhəmiyyətli hissəsi Ermənistan tərəfindən məhv edilib.

Ümumiyyətlə, təkcə Laçında deyil, düşməndən təmizlənən digər rayonlarımızda da işğalçı genişmiqyaslı barbar hərəkətlər törədib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var – ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Bir sözlə, Laçın rayonunun təbiəti və təbii sərvətləri 28 il ərzində talan edilib. Meşələr doğranıb, xüsusi mühafizə edilən ağaclar kəsilib, təbii ehtiyatlar talanaraq Ermənistana daşınıb.

Dövlətimizin başçısının bildirdiyi kimi, işğalçı tərəfindən həmin ərazilərdə, xüsusilə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında on minlərlə hektarda taxıl əkilib, ildə 90 min ton taxıl yığılıb. Ermənistanın bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısı Azərbaycan ərazilərindən götürülüb. Yaxud, düşmən illərlə yaradılan üzüm bağlarını dağıdıb, yerində köhnə şpalerlər qalıb. Amma bir çox yerlərdə üzüm bağları saxlanılıb. Çünki həmin bağlardan istifadə edilib: "Vəhşi kimi gəlib başqasının torpağına, onu istismar edib, onun mənşəyini dəyişdirmək istəyib, yaşayış məntəqələrinin adlarını dəyişdirmək istəyib, tarixi abidələrimizi yerlə-yeksan edib, saxta tarix yaradıb, xəritələr dərc edib. Bu, bölgədə mövcud olan ənənələrə, qaydalara, Qafqazda mövcud olan davranış qaydalarına tamamilə ziddir. Bu, bir daha onu göstərir ki, erməni xalqının bizim bölgə ilə heç bir əlaqəsi olmayıb. Bunlar heç vaxt Qafqaz xalqı olmayıb. Sonradan gəlmələrdir".

Ümumiyyətlə, Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman respublikamızda iqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək. Ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək, xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda, Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misli görünməmiş tikinti-quruculuq və bərpa işləri, müxtəlif təyinatlı sosial-infrastruktur layihələri, Böyük qayıdışın reallaşmasını təmin edəcək yaşayış sahələrinin tikintisi ölkə Prezidentinin bir il öncə imzaladığı haqqında söhbət açılan tarixi fərmanın uğurlu göstəricisidir. Yəni bu sənəd Azərbaycanın iqtisadi rayonlarının, xüsusən Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına mühüm töhfə verir.

Dünya bazarında neftin qiymətinin artması ilə dövlət büdcəsində edilən dəyişiklik də bu prosesin daha da sürətlənməsinə real zəmin yaradır. Xatırladaq ki, dövlət büdcəsindən düşməndən təmizlənən torpaqlarımızdakı bərpa və quruculuq işləri üçün həm 2021, həm də 2022-ci ildə 2,2 milyard manat vəsait ayrılıb. Büdcəyə edilən dəyişiklikdən sonra bu vəsaitin həcmi daha 470 milyon manat artırılıb.

Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdəki işlərlə bağlı, bütövlükdə, 4 milyard 870 milyon manat vəsaitin ayrılması göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur tezliklə dünyanın ən gözəl məkanlarından birinə çevriləcək.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***